# İgidliyi və vətənpərvərliyi ilə nəsillərə nümunə

## Milli Qəhrəman

*Doğru deyiblər: Şəhidliyin, qəhrəmanlığın məkanı, zamanı olmur. Şəhidlər xalqın kimliyini, mənliyini qoruyub işıqlı sabahımıza boylanan azadlıq pöhrələri, yüksəlişə, ucalığa can atan könül dünyamızdır. Heç kimə bənzəmədən ömrünü Vətənə bağışlayan oğullardı qəhrəmanlar.*



## *2010-cu ilin iyunun 18-də Mübariz İbrahimov şəhidlik zirvəsinə yüksəlib*

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şəhidlik zirvəsinə yüksəldiyi, qəhrəmanlığı ilə dünyaya səs salmasından ötən 15 il ərzində hər zaman səhifələrində vətənpərvərlik mövzularına daim yer ayıran qəzetimizdə haqqında yüzlərlə yazılar dərc olunub.

2010-cu ilin iyunun 18-də bir qrup erməni hərbiçisi atəşkəsi pozaraq mövqelərimizə hücum edir. Həmişə səngərdə ayıq-sayıq dayanan Milli Ordunun əsgərləri bu dəfə də düşmənə layiqli cavab verir.

Bu igid Vətən oğlu Mübariz özündən sonra "Vətən sağ olsun!" yazılmış bir məktub qoyur, elə həmin gün təkbaşına iki ordu arasındakı bir kilometrlik mina döşənmiş cəbhə xəttini yararaq düşmən birliklərinin yerləşdiyi tərəfə keçir. Gizir Mübariz bu döyüşdə erməni əsgərlərinin öz silahlarından istifadə edərək 5 saat boyunca onlarla təkbətək vuruşur. Bu qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur. Tarixə səs salan, yatan ruhlarımızı oyadan bu qəhrəman ürəklərdə iz qoyur. Ana tarix misli-bərabəri olmayan bir qəhrəmanlığın şahidi olur. Cəmi 22 illik bir ömür yaşamış bu cəngavər, ölməz Vətən oğlunun hünəri, igidliyi ata-anasına, qardaşlarına qohumlarına, dost və tanışlarına, Azərbaycan xalqına, bütün türk dünyasına sonsuz baş ucalığı gətirdi.

"Elin Mübariz oğlu" adlı kitabımı hazırlayarkən söhbət zamanı qəhrəmanın atası Ağakərim kişi (artıq dünyasını dəyişib) həmin günü belə xatırlayırdı: "Mənə dedilər ki, başını dik tut, oğlun Vətən yolunda fəda olub. Göz yaşlarımı bircə anlığa boğa bilməsəm də, nə özümü itirdim, nə də sındım! Başımı dik tutub,"Vətən sağ olsun" dedim. Mən onu saxlaya bilmədim seçdiyi yoldan! Kimsə də saxlaya bilməzdi, kəlməsi Vətən idi. Dilindən düşmürdü Vətən kəlməsi. Mən oğlumu Vətənə fəda etmişəm. Vətən hər şeydən ucadır və Vətənin şərəfindən söhbət gedən yerdə atanın da qarışmağa haqqı yoxdur. Uşaqlarıma haqqa baş əyməyi, yalana nifrət etməyi, zülmə qarşı vuruşmağı öyrətmişəm".




Bir şimşək ömrü yaşayaraq Vətən, torpaq yolunda qəhrəmancasına həlak olub şəhidlik zirvəsinə ucalmış Mübarizin igidliyi heç zaman solmayacaq. İllər ötüb keçəcək, zaman dəyişəcək. Amma Mübariz İbrahimov Azərbaycan xalqının xatirəsində elə 22 yaşlı bir qəhrəman kimi qalacaq. Bir evdən, bir eldən çıxıb bütün xalqın qəhrəmanı olmaq böyük xoşbəxtlikdir. Və belə xoşbəxtlik qeyrətli, cəsarətli oğullara qismət olur.

Prezident İlham Əliyevin 22 iyul 2010-cu il tarixli sərəncamı ilə Mübariz Ağakərim oğlu İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. 2010-cu ilin noyabrın 7-də Prezident İlham Əliyev Milli Qəhrəman Mübariz İbrahimov və Fərid Əhmədovun vida mərasimində çıxışı zamanı demişdir: "...Mübarizlə Fərid öz həyatı ilə, öz qəhrəmanlığı ilə düşmənə sübut etdilər ki, Azərbaycan xalqı, Azərbaycan gəncləri Vətən uğrunda canlarından keçməyə də hazırdırlar. Bu, böyük qəhrəmanlıq, hünər, vətənpərvərlik nümunəsidir".

2020-ci il dekabrın 10-da Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında söyləmişdir: "Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru Paşanın, Ənvər Paşanın, Qafqaz İslam Ordusunun igidlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür".

Bu gün Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adına məktəb-lisey kompleksi, küçələr var. Mavi sularda "Mübariz İbrahimov" gəmisi üzür. "Müqəddəs zirvə" filmi onun igidliyindən, qəhrəmanlığından bəhs edir. Qəhrəmanın döyüş yolu haqqında bəhs edən neçə-neçə kitab işıq üzü görüb. 2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto parkında Azərbaycan icmasının təşəbbüsü ilə Mübariz İbrahimov adına xatirə lövhəsi vurulmuşdur. 2016-cı ildə Sumqayıtda küçələrdən birinə M.İbrahimovun adı verilmiş, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində abidəsi ucaldılmışdır. 2008-ci ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi "İstiqlal" snayper tüfəngləri ailəsindən 12.7 mm çaplı ikinci tüfəng onun şərəfinə "Mübariz" adlandırılmışdır.

Vətən, torpaq yolunda canından keçənlər ölmürlər, şəidlik zirvəsinə ucalaraq əbədiyyət qazanırlar. Ruhun şad olsun, həmişə ürəklərdə yaşayan elimin qəhrəman igid oğlu!

**M.MİRZƏ,**
**"Respublika".**